

# Moskva Qarabağ münaqişəsinin tezliklə həll olunmasında maraqlıdır

*Prezident İlham ƏLİYEV: "Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi bu münaqişənin tənzimlənməsi işində mühüm rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk"*

Azərbaycan tərəfi sülh danışıqlarına sadiq olduğunu dəfələrlə nümayiş etdirib. Lakin işğalçı Ermənistan danışıqlar prosesində qeyri-konstruktiv mövqe nümayiş etdirməklə zaman-zaman təmas xəttində təxribatçı hərəkətlərə yol verib. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusu tərəfindən təlimlərin keçirilməsi, hərbi vertolyotların havaya qaldırılması, bununla da təmas xəttinin yaxınlığında yaşayan əhalinin hədə-qorxu altında saxlanılmasına cəhd göstərilməsi Yerevanın təcavüzkar niyyətindən əl çəkmədiyini bir daha sübuta yetirir.

Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycanın cəbhəboyu, həmçinin təmas xəttinə yaxın olmayan yaşayış məntəqələrini atəşə tutaraq növbəti təxribat hərəkətlərinin qarşısı layiqincə alındı. Aprelin 2-dən 5-dək Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əməliyyat nəticəsində qoşunların təmas xəttində yerləşən işğalçı ordunun mövqelərinə sarsıdıcı zərbə endirilmiş, düşmən həm canlı qüvvə, həm də texnika baxımından ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olmuşdur. Qısa müddətdə həyata keçirilən sürətli əkshəmlə zamanı strateji əhəmiyyətə malik bir neçə yüksəklik düşməndən azad olunmuşdur. Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər düşmən qüvvələrindən təmizlənmişdir. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən Lələtəpə yüksəkliyi də ordumuzun nəzarəti altına keçmişdir.

Təmas xəttində hərbi əməliyyatların aktivləşməsi dünyanın diqqətini bir daha bu regiona yönəltdi. Ermənistan tərəfinin növbəti təxribatçı hərəkətlərə yol verməsi ilə bağlı nüfuzlu təşkilatlar və bir sıra dövlətlər narahatlığını ifadə etdi. Ermənistan tərəfinin təxribatçı hərəkətlərinə baxmayaraq, Azərbaycan rəhbərliyi bu dəfə də dinc tənzimləməyə sadiq qalaraq atəşkəs elan etdi.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng vuraraq cəbhə xəttindəki son hadisələrlə bağlı vəziyyətlə maraqlanaraq atəşkəs rejiminin möhkəmlənməsinin vacibliyini vurğuladı. Aprelin 6-da Rusiyanın xarici işlər naziri Sergey Lavrovun və aprelin 8-də isə Rusiya hökumətinin sədri Dmitri Medvedevin ölkəmizə səfərləri bir sıra mühüm məqamlara aydınlıq gətirdi. Əvvəla, Rusiya rəhbərliyi son hadisələrdə özü üçün tam yəqin etdi ki, Azərbaycan üçün işğal altında olan ərazilər üzərində nəzarətin bərpa edilməsi milli təhlükəsizlik məsələsidir. Azərbaycan dövləti milli maraqları ilə bağlı məsələlərdə güzəştə getmək niyyətində deyil. Cəbhə xəttində aparılan uğurlu əməliyyatlar da təsdiq etdi ki, Azərbaycan Ordusu qarşısına qoyulan vəzifələri yerinə yetirmək və torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır.

Digər tərəfdən, Rusiya ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş münaqişə olmadığını və problemin tezliklə nizama salınmasının vacib olduğunu özü üçün yəqin etdi. Rusiya rəhbərliyi də başa düşür ki, bu vəziyyət sonsuzluğadək davam edə bilməz və hansısa məqamda böyük insan tələfatına səbəb ola biləcək hərbi əməliyyatların başlaması tamamilə realdır. Ona görə də mövcud status-kvonun davam edə bilməyəcəyi fikri açıq səsləndirildi.

Prezident İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüşündə bir daha Azərbaycanın sülh danışıqlarına tərəfdar olduğunu, ancaq Ermənistanın qeyri-konstruktiv mövqe tutduğuna diqqəti cəlb etdi: "Hamıya bəlli olduğu kimi, son günlər qoşunların təmas xəttində insan tələfatı ilə müşahidə olunan gərgin vəziyyət yaranmışdır. Əlbəttə ki, bu da həm dünyada, həm regionda, həm də ictimaiyyət arasında narahatlıq doğurur. Rusiya bu halda yenidən təşəbbüs göstərdi və Rusiya tərəfinin vasitəçiliyi ilə atəşkəs haqqında razılaşma əldə olundu. Biz hesab edirik ki, bu, regionda vəziyyətin gərginləşməsinə imkan verməməyin yeganə yoludur. Atəşkəs rejiminə riayət olunurdu. Təəssüf ki, bu gün axşam Ermənistan tərəfi atəşkəsi pozdu.

Biz danışıqlar prosesinin davam etdirilməsinə köklənmişik. Bu gün mən ATƏT-in Minsk qrupunun həmsədrlərini - səfirləri qəbul etdim. Onlara da dedim və indi mətbuat qarşısında da demək istəyirəm ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir. Biz bu münaqişəni sülh yolu ilə beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimləmək istəyirik. Düşünürəm ki, atəşkəsin elan olunmasından sonra ötən 20 ildən çox müddət bizim məhz siyasi nizamlanmaya köklədiyimizi sübut edir".

Ölkə rəhbəri Azərbaycanın müstəqil dövlət kimi uğurlu siyasət apardığını bir daha sübuta yetirdi. Bu prinsipial və qətiyyətli yanaşma ölkənin daxili işlərinə kobud şəkildə müdaxilə etməyə, bu yolla iqtisadi-siyasi maraqlarını gerçəkləşdirməyə çalışan dövlətlərə, beynəlxalq qurumlara münasibətdə özünü bir daha göstərdi. Prezident İlham Əliyev Azərbaycan tərəfinin ilk gündən atəşkəs rejimi ilə bağlı bəyanat verməsinə baxmayaraq, qarşı tərəfin döyüş əməliyyatlarını davam etdirdiyini və əgər bu rejim pozularsa, məsuliyyətin Ermənistan tərəfi üzərində olacağını da vurğuladı.

"Ümid edirəm ki, son günlərin hadisələri bizi siyasi tənzimlənmə ilə daha fəal məşğul olmağa sövq edəcək. Bizim təkliflərimiz var. Biz bu təklifləri həmsədrlərlə birlikdə Azərbaycan ilə Ermənistan arasında razılaşmanın əldə olunması naminə daha fəal işə salmağa çalışırıq. Hesab edirəm ki, biz bu məsələlərə ortamüddətli və uzunmüddətli perspektivdə də diqqət yetirə biləcəyik" deyən Rusiyanın xarici işlər naziri Sergey Lavrov da ATƏT-in Minsk qrupunun danışıqlar prosesini uzatmaq fikrində olmadığını bir daha açıq bildirdi.

Rusiya hökumətinin sədri Dmitri Medvedevin Prezident İlham Əliyevlə görüşündə Azərbaycan və Rusiya arasında münasibətlərin ölkələrimizin milli maraqlarına uyğun istiqamətdə inkişaf etdiyi vurğulandı. Bu səfərin iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edəcəyi qeyd olundu. Ticarət-iqtisadi, energetika və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu və bu istiqamətdə görüləcək işlər müzakirə predmeti oldu. Görüşdə xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi problemləri müzakirə edildi. Prezident İlham Əliyev gərginliyin azaldılması işində Rusiya rəhbərliyinin fəal vasitəçilik səylərini yüksək qiymətləndirdi: "Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi bu münaqişənin tənzimlənməsi işində mühüm rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Bu, Ermənistan tərəfindən növbəti silahlı provokasiya fonunda özünü xüsusilə göstərdi. Bizim mövqelərimiz hücumlara məruz qaldı, o cümlədən yaşayış məntəqələrinə zərər vuruldu. Qoşunların təmas xəttinin yaxınlığında yerləşən 400-dən çox ev zədələndi. Onlarca ev tamamilə dağıdıldı. Bizdə insan tələfatı da olub, o cümlədən dinc sakinlər arasında da.

Bu şəraitdə Rusiya tərəfi vəziyyətin gərginliyini azaltmağa təşəbbüs göstərdi. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin mənə və Ermənistan prezidentinə zəng vurdu, öz narahatlığını, həmçinin vəziyyətin gərginliyinin azaldılmasında tərəflərə kömək etmək istədiyini bildirdi. Biz bu siqnalları müsbət qəbul etdik. Bundan əlavə, Moskvada Rusiya Federasiyası Baş Qərargahının rəhbərliyinin iştirakı ilə üç ölkənin baş qərargah rəhbərləri arasında görüş keçirildi. Həmin görüşdə hərbi əməliyyatların dayandırılması barədə qərar qəbul edildi. Biz bu qərarı dönmədən yerinə yetiririk və ümid edirik ki, erməni tərəfi də buna əməl edəcək".

Rusiya hökumətinin sədri Dmitri Medvedev hərbi əməliyyatların dayandırılmasını müsbət hal kimi dəyərləndirərək atəşkəsin davamlı, uzunmüddətli xarakter daşıyacağına ümidvar olduğunu bildirdi. Dmitri Medvedev Rusiyanın Minsk qrupunun həmsədri kimi bundan sonra da bütün bu işləri davam etdirməyə hazır olduqlarını bəyan etdi: "Azərbaycan Prezidentinin indicə haqlı olaraq dediyi kimi, biz bu prosesə fəal qoşulmuşuq, o cümlədən hökumət nümayəndə heyətinin indiki səfəri həm də bu amillərlə bağlıdır. Ümidvaram ki, bütün bunlar etimadın möhkəmlənməsinə və maksimum əlverişli nəticə qazanmağa xidmət edəcək. Bu regionda, bizim regionda sülhün bərqərar olmasında Rusiyanın marağı Azərbaycanın və Ermənistanın marağından az deyil və istərdim ki, bunu hamı başa düşsün".

Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə ölkədir. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun və Baş naziri Dmitri Medvedevin Bakıda verdikləri bəyanatlar ikitərəfli əlaqələrin genişlənməsində mühüm rol oynamaqla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə tənzimlənəcəyinə ümidləri artırır.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***